# AZƏRBAYCAN RESPUBLİKASI SƏHİYYƏ NAZİRLİYİ

# ƏMR

**№54** **17.05.2011-ci il**

**“Bakı şəhərinin əhalisinə göstərilən ambulator psixiatriya yardımının təkmilləşdirilməsi barədə”**

Bakı şəhərinin əhalisinə ambulator psixiatriya yardımının daha da yaxınlaşdırılması məqsədilə, eləcə də Psixi Sağlamlıq Sahəsində Milli Strategiyaya əsaslanaraq,

**ƏMR EDİRƏM:**

1. Bakı Baş Səhiyyə İdarəsinin rəisi L.Seyidbəyovaya tapşırılsın:

1.1. Bakı şəhər Psixonevroloji Dispanserinin 19 vahid həkim-psixiatr ştatı bu əmrin əlavəsində göstərilən tibb müəssisələrinə verilməklə həmin müəssisələrdə psixiatriya kabinetləri təşkil edilsin;

1.2. xidmətin fəaliyyətində fasiləsizliyi təmin etmək məqsədilə yeni təşkil edilmiş psixiatriya kabinetləri (müsabiqə keçirilənə qədər müvəqqəti olaraq) Bakı şəhər Psixonevroloji Dispanserində çalışan həkim-psixiatrlar hesabına komplektləşdirilsin;

1.3. aparılan struktur dəyişiklikləri ilə əlaqədar olaraq Bakı şəhər Psixonevroloji Dispanserinin və psixiatriya kabinetləri təşkil edilən tibb müəssisələrinin ştat cədvəllərində müvafiq dəyişikliklər edilsin.

2. Tibbi yardımın təşkili şöbəsinin müdiri S. Əliyevə, Səhiyyə Nazirliyinin baş psixiatrı G. Gəraybəyliyə və Bakı şəhər Baş Səhiyyə İdarəsinin rəisi L. Seyidbəyovaya tapşırılsın ki, bir ay müddətində Bakı şəhər Psixonevroloji Dispanseri və şəhər poliklinikalarının psixiatriya kabinetləri haqqında əsasnamələr hazırlanaraq təsdiq olunmaq üçün təqdim edilsin.

3. Əmrin icrasına nəzarət Nazir müavini N. Əliyevaya həvalə edilsin.

**Nazir müavini** **Abbas Vəlibəyov**

Azərbaycan Respublikası Səhiyyə Nazirinin
-------- 20011-cu il tarixli --- nömrəli
əmri ilə təsdiq edilmişdir

## Bakı şəhərinin ambulator-poliklinika müəssisələrində psixiatriya xidmətinin göstərilməsi üzrə bölgü

| S/N | Psixiatriya kabinetləri olan tibb müəssisələri | Təhkim olunan tibb müəssisələri |
|---|---|---|
| 1. | **Xəzər rayonu**<br><br>26 N-li BŞX | 14, 29 və 31 N-li BŞX-lar,<br>3, 12 və 20 N-li TSH,<br>17 N-li poliklinika, Zirə SM |
| 2. | **Binəqədi rayonu**<br><br>9 N-li poliklinika | 15 və 27 N-li poliklinikalar, Xocahəsən SM, |
| | 10 N-li poliklinika | 25 N-li poliklinika, 6 N-li BŞX,<br>6 N-li TSH |
| 3. | **Qaradağ rayonu**<br><br>19 N-li BŞX | 9, 17 və 23 N-li BŞX, 13 və 32 N-li poliklinikalar |
| 4. | **Nərimanov rayonu**<br><br>4 N-li poliklinika | 18 N-li poliklinika |

| | | |
|---|---|---|
| | 8 N-li poliklinika | 22 N-li TSH |
| 5. | **Nəsimi rayonu**<br><br>5 N-li poliklinika<br><br>20 N-li poliklinika | <br><br>ATU-nun poliklinikası, 2 N-li tələbə poliklinikası |
| 6. | **Nizami rayonu**<br><br>26 N-li poliklinika | <br><br>14 və 17 N-li TSH, 11və 32 N-li BŞX-lar |
| 7 | **Səbail rayonu**<br><br>1 N-li poliklinika<br><br>33 N-li poliklinika | <br><br>2 N-li poliklinika, 29 N-li tələbə poliklinikası<br><br>34 N-li poliklinika |
| 8 | **Sabunçu rayonu**<br><br>11 N-li poliklinika<br><br>7 N-li BŞX | <br><br>12, 21 və 22 N-li poliklinikalar, 5 N-li TSH, Zabrat MDM<br><br>8 N-li SX və 28 N-li BŞX, Kürdəxanı SM |
| 9 | **Suraxanı rayonu**<br><br>10 N-li TSH-ın<br><br>31 N-li poliklinika | <br><br>24 N-li poliklinika, 4 N-li TSH, 12 N-li BŞX<br><br>23 N-li poliklinika, 30 N-li ambulatoriya |
| 10 | **Xətai rayonu**<br><br>7 N-li poliklinika<br><br>1 N-li TSH | <br><br>6 və 14 N-li poliklinikalar, Zığ SM<br><br>2 və 15 N-li TSH |

| | | |
|---|---|---|
| 11 | **Yasamal rayonu**<br><br>3 N-li poliklinika<br><br>16 N-li poliklinika | 19 N-li poliklinika<br><br>1 və 30 N-li tələbə poliklinikaları |